AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# Vergi Məcəlləsində edilmiş dəyişikliklər suallar və cavablarda

**Vergi Məcəlləsində dəyişikliklər Azərbaycan Respublikasının 9 dekabr 2025-ci il tarixli Qanunu ilə təsdiq edilib.**

BAKI 2026

# MÜNDƏRİCAT

**İnvestisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması ........ 3**

**Vergi daxilolmalarının və büdcə gəlirlərinin tənzimlənməsi ........ 17**

**Vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi, «kölgə iqtisadiyyatı»na qarşı mübarizə ........ 22**

## Vergi Məcəlləsində edilmiş dəyişikliklər suallar və cavablarda

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklərə dair Qanun Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2025-ci il tarixli 563 saylı Fərmanı ilə təsdiq edilib.
Qanunla Vergi Məcəlləsində edilmiş növbəti dəyişikliklər aşağıdakı bir neçə əsas istiqaməti əhatə edir:

- İnvestisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması;
- Vergi daxilolmalarının və büdcə gəlirlərinin tənzimlənməsi;
- Vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi, «kölgə iqtisadiyyatı»na qarşı mübarizə.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin vergi ödəyiciləri tərəfindən daha ərtraflı mənimsənilməsi üçün hazırlanmış bu «Sual-cavab» kitabçasının hamı üçün faydalı olacağına inanırıq. Kitabçada verilmiş adlar və hadisələr şərti olaraq seçilib.

# 1 | İnvestisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması

**1. Məlumdur ki, 2026-cı ildən balıq məhsulları kənd təsərrüfatı məhsullarına bərabər tutulmuşdur. Cəmiyyət həm ölkədə balıq istehsalını, həm də xarici ölkədən dondurulmuş balıq idxal edərək ölkə ərazisində satışını həyata keçirir. Bu halda həmin məhsulların satışına ƏDV hansı qaydada tətbiq edilməlidir?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsində kənd təsərrüfatı sahəsinə verilən güzəştlərin balıqçılığa (balıq kürüsünün istehsalı istisna olmaqla) da şamil edilməsi ilə bağlı dəyişikliklər edilmişdir. Belə ki, emal əməliyyatlarına məruz qalan balıq məhsulları istisna olmaqla, balıqyetişdirmə fəaliyyətini həyata keçirən şəxslər tərəfindən kəsilmə və dondurulma əməliyyatlarına məruz qalan balıq məhsulları Vergi Məcəlləsinin məqsədləri üçün kənd təsərrüfatı məhsullarına bərabər tutulur.

Göründüyü kimi, balıqyetişdirmə fəaliyyətini həyata keçirən şəxslər tərəfindən özlərinin istehsal etdikləri balıq məhsullarının (o cümlədən kəsilmə və dondurulma əməliyyatlarına məruz qalan) satışı Vergi Məcəlləsinin 164.1.18-ci maddəsinə əsasən ƏDV-dən azaddır.

Eyni zamanda, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinin 159.1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən kənd təsərrüfatı məhsulu kimi balıq məhsullarının da (xarici mənşəli balıq məhsulları istisna olmaqla) topdan və pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanır.

Qeyd olunanlara əsasən, müəssisə tərəfindən ölkə ərazisində istehsal edilmiş balıq məhsullarının (balıq kürüsü istisna olmaqla) satışı ƏDV-dən azaddır. Dondurulma əməliyyatlarına məruz qalan balıq məhsullarının xarici ölkələrdən idxal edilərək ölkə ərazisində satışı zamanı isə ƏDV tam məbləğdən hesablanır.

*Əsas: Vergi Məcəlləsinin 13.2.60-cı, 153.3-cü, 159.1-ci və 164.1.18-ci maddələri.*

?

**2. Müəssisə Neftçala rayonunda 2020-ci ildən balıqyetişdirmə fəaliyyəti ilə məşğuldur. Müəssisə yetişdirdiyi balıqları həm dondurulmuş şəkildə, həm də hisə verməklə satışını həyata keçirir. Vergi Məcəlləsinə balıqyetişdirmə ilə bağlı dəyişikliklər edilənədək qeyd olunan məhsulların satışı vergilərə cəlb olunurdu. 2026-cı ildən etibarən balıqçılıq fəaliyyətinin kənd təsərrüfatına bərabər tutulduğuna görə müəssisəyə qeyd olunan fəaliyyətlər üzrə vergi güzəştləri aid ediləcəkmi?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsində kənd təsərrüfatı sahəsinə verilən güzəştlərin balıqçılığa (balıq kürüsünün istehsalı istisna olmaqla) da şamil edilməsi ilə bağlı dəyişikliklər edilmişdir. Belə ki, emal əməliyyatlarına məruz qalan balıq məhsulları istisna olmaqla, balıqyetişdirmə fəaliyyətini həyata keçirən şəxslər tərəfindən kəsilmə və dondurulma əməliyyatlarına məruz qalan balıq məhsulları bu Məcəllənin məqsədləri üçün kənd təsərrüfatı məhsullarına bərabər tutulur.
Buna əsasən, balıqyetişdirmə fəaliyyətini həyata keçirən müəssisə tərəfindən digər emal əməliyyatları istisna olmaqla, yalnız kəsilmə və dondurulma əməliyyatlarına məruz qalan balıq məhsulları kənd təsərrüfatı məhsullarına bərabər tutulur və müəssisənin bu fəaliyyətinə Vergi Məcəlləsində kənd təsərrüfatı fəaliyyətinə aid vergi güzəştləri tətbiq edilir. Müəssisə tərəfindən hisə verilməklə emal əməliyyatlarına məruz qalan balıq məhsulları kənd təsərrüfatı məhsullarına aid edilmir və bu məhsulların satışı Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada vergilərə cəlb olunur.

*Əsas: Vergi Məcəlləsinin 13.2.60-cı maddəsi.*

?

**3. Sadələşdirilmiş verginin ödəyicisi olan fərdi sahibkarın Şərur rayonunda mağazası var və qida məhsullarının pərakəndə satışı ilə məşğuldur. 2026-cı ildən Naxçıvanda fəaliyyət göstərən vergi ödəyicisilərinə vergi güzəştlərinin verilməsi barədə qanunda dəyişiklik edilmişdir. Bu halda vergi güzəştləri həmin fərdi sahibkara hansı formada tətbiq ediləcəkdir?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, işğaldan azad edilmiş ərazilər üzrə Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulan mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergi üzrə güzəştlər (idxalda ƏDV-dən azadolma fərqli şərtlərlə) Naxçıvan Muxtar Respublikasına münasibətdə də şamil edilir. Vergi Məcəlləsinin 227.1-ci və 227.3-cü maddələrində nəzərdə tutulan vergi azadolmaları Naxçıvan Muxtar Respublikasının rezidentlərinə münasibətdə 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə tətbiq edilir.
Naxçıvan Muxtar Respublikasının rezidenti dedikdə, Naxçıvan Muxtar Respublikasında və ya mərkəzləşdirilmiş qaydada vergi uçotuna alınan və bilavasitə Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşülür.
Eyni zamanda, Vergi Məcəslləsinin 227.4.3-cü maddəsinin müddəalarına əsasən, pərakəndə ticarət üzrə vergi azadolması Naxçıvan Muxtar Respublikasının ərazisində vergi uçotuna alınan və həmin ərazidə fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir.
Qeyd olunanlara əsasən, Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış və bilavasitə həmin ərazidə fəaliyyət göstərən fərdi sahibkarın həmin ərazidə pərakəndə ticarət fəaliyyəti üzrə əldə olunan gəlirləri 2026-cı ilin yanvarın 1-dən 10 il müddətinə sadələşdirilmiş vergidən azaddır.

*Əsas: Vergi Məcəlləsinin 226.4-cü, 227.1-ci, 227.3-cü və 227.4.3-cü maddələri.*

?

**4. Müəssisəmiz Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərir və emal sənayesi ilə məşğul olur. Xammal və materiallar xarici ölkələrdən idxal edilir. 2026-cı ildən Naxçıvan Muxtar Respublikasının rezidenti olan vergi ödəyicilərinə müəyyən güzəştlərin verildiyini nəzərə alaraq, həmin xammal-materialların idxalı ƏDV-dən azad edilirmi?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə əlavə edilmiş 227.2-1 – 227.2-3-cü maddələrinə əsasən Naxçıvan Muxtar Respublikasının rezidentlərinə idxalda tətbiq edilən ƏDV-dən azadolma investisiya təşviqi sənədini almış, habelə Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin, sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlara münasibətdə müəyyən olunmuşdur.

Buna əsasən, Naxçıvan Muxtar Respublikasının rezidenti olan müəssisənin investisiya təşviqi sənədi olduğu, yaxud Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin, sənaye və texnologiyalar parklarının rezidenti olduğu halda Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında idxal etdiyi xammal və materiallara ƏDV azadolma tətbiq oluna bilər.

*Əsas: Vergi Məcəlləsinin 227.2-1-ci, 227.2-2-ci və 227.2-3-cü maddələri.*

**5. Naxçıvan Muxtar Respublikasında şüşə qabların istehsalı ilə məşğul olan müəssisə istehsal etdiyi şüşə qabları Naxçıvan Muxtar Respublikası ilə yanaşı, həm ölkənin digər regionlarında satır, həm də ölkə xaricinə ixrac edir. Naxçıvan Muxtar Respublikasının rezidenti olan müəssisəyə Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştləri tətbiq olunurmu?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, işğaldan azad edilmiş ərazilər üzrə Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulan mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergi üzrə güzəştlər (idxalda ƏDV-dən azadolma fərqli şərtlərlə) Naxçıvan Muxtar Respublikasına münasibətdə də şamil edilir. Vergi Məcəlləsinin 227.1-ci və 227.3-cü maddələrində nəzərdə tutulan vergi azadolmaları Naxçıvan Muxtar Respublikasının rezidentlərinə münasibətdə 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə tətbiq edilir.

Naxçıvan Muxtar Respublikasının rezidenti dedikdə, Naxçıvan Muxtar Respublikasında və ya mərkəzləşdirilmiş qaydada vergi uçotuna alınan və bilavasitə Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşülür.

Eyni zamanda, Vergi Məcəlləsinin 227.4.1-ci maddəsinin müddəalarına əsasən, istehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması Naxçıvan Muxtar Respublikasının ərazisində vergi uçotuna alınan və həmin ərazidə bu fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir. Bu maddədə nəzərdə tutulan vergi azadolması istehsal, o cümlədən emal və ya hasil edilərək Naxçıvan Muxtar Respublikasının ərazisi daxilində və ya həmin ərazidən kənara təqdim edilən, habelə Azərbaycan Respublikasının ərazisindən ixrac edilən mallara

görə əldə olunan gəlirlərə şamil edilir.
Qeyd olunanlara əsasən, Naxçıvan Muxtar Respublikasında istehsal fəaliyyəti ilə məşğul olan müəssisə tərəfindən istehsal etdiyi malların özünə məxsus təsərrüfat subyektindən, o cümlədən ərazidən kənar digər şəhər və regionlarda satışının həyata keçirilməsi, habelə Azərbaycan Respublikasının ərazisindən ixrac edilməsi zamanı Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulan güzəştlər tətbiq edilir. İstehsal fəaliyyəti Naxçıvan Muxtar Respublikası ilə yanaşı, digər region və şəhərlərdə həyata keçirildiyi halda isə müvafiq vergi güzəştləri həmin şəxsə münasibətdə tətbiq edilmir.
Əlavə olaraq bildiririk ki, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 14-1.1-1-ci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının rezidenti olan, qeyri-dövlət sektoruna aid edilən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi iqtisadi fəaliyyət növləri təsnifatına uyğun olaraq bilavasitə istehsal, o cümlədən emal və hasilat sahəsində (neft-qaz sahəsi istisna olmaqla) fəaliyyət göstərən sığortaedənlər tərəfindən həmin Qanunun 14.3-cü və 14.4-cü maddələrinə əsasən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır.

*Əsas: Vergi Məcəlləsinin 226.4-cü, 227.1-ci və 227.4.1-ci maddələri, "Sosial sığorta haqqında" Qanunun 14-1.1-1-ci maddəsi.*

?

**6. MMC 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisidir. Dövlət Vergi Xidmətinin saytında 2026-cı ilin yanvarın 1-dən ƏDV-nin ödəyicisi olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə nağdsız dövriyyə üzrə güzəştin tətbiq olunduğu barədə məlumat paylaşılmışdır. MMC-yə məxsus restoranda da nağdsız ödənişlərə üstünlük verilir. Bəs 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi rejimində fəaliyyət göstərən MMC üçün 2026-cı ildən güzəşt varmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 220.1-1-ci maddəsində edilmiş dəyişikliyə əsasən, ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi Vergi Məcəlləsinin 219.1-ci maddəsində müəyyən edilmiş vergitutma obyekti üzrə 8 faiz dərəcə ilə, əhaliyə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan vergitutma obyekti üzrə isə 2026-cı il yanvarın 1-dən 3 il müddətinə 6 faiz dərəcə ilə hesablanır. Nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.
Buna əsasən, 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti göstərən müəssisə tərəfindən yalnız əhaliyə göstərilən xidmətlər üzrə nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada həyata keçirilən ödənişlər əsasında formalaşan dövriyyəsi sadələşdirilmiş vergiyə 6 faiz dərəcə ilə cəlb olunur.

*Əsas: Vergi Məcəlləsinin 220.1-1-ci maddəsi.*

?

**7. İctimai iaşə fəaliyyəti göstərən fərdi sahibkar ƏDV qeydiyyatındadır. 2026-cı ildən ictimai iaşə fəaliyyəti üzrə Vergi Məcəlləsində bir sıra dəyişikliklər, o cümlədən nağdsız dövriyyə üzrə ƏDV-dən güzəşt müəyyən edilmişdir. Sahibkarın 2026-cı ilin yanvar ayında 80.000 manat dövriyyəsi olub, onun 30.000 manat hissəsi POS-terminal vasitəsilə müştərilərin apardığı ödənişlərdən formalaşmışdır. Həmin vergi ödəyicisinə 2026-cı ilin yanvar ayına görə tətbiq olunacaq ƏDV güzəşti nə qədər olacaqdır?**

Bildiririk ki, 2026-cı il yanvarın 1-dən Vergi Məcəlləsinin 174.5-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, həmin tarixdən 3 il müddətinə ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin hesabat dövrü ərzində əhaliyə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizi onların vergi tutulan ümumi dövriyyəsindən çıxılır. Nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparılmalıdır.
Eyni zamanda, 2026-cı il yanvarın 1-dən Vergi Məcəlləsinin 102.1.41-ci maddəsinə edilmiş dəyişikliyə əsasən ictimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən bu Məcəllənin 174.5-ci maddəsinə əsasən ƏDV məbləğinin azaldılmasından əldə edilən gəlirlər gəlir vergisindən azaddır.
Buna əsasən, ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın nağdsız qaydada həyata keçirilən ödənişləri nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya edilmiş POS-terminal vasitəsilə aparıldığı halda, həmin vergi ödəyicisinin əhaliyə göstərilən xidmətlər üzrə bu POS-terminal vasitəsilə apardığı nağdsız ödənişlər əsasında formalaşan dövriyyəsinin 50 faizi (30.000x50%=15.000 manat) onun vergi

tutulan ümumi dövriyyəsindən çıxılmaqla qalan məbləğ (80.000-15.000=65.000 manat) 18 faiz dərəcə ilə ƏDV-yə cəlb olunur. Həmçinin, ƏDV məbləğinin azaldılmasından əldə edilən bu gəlirlər (15.000 manat) mənfəət vergisindən azaddır.

*Əsas: Vergi Məcəlləsinin 106.1.34-cü və174.5-ci maddələri.*

**8. 2025-ci ilin mart ayında qeydiyyatdan keçməklə Sumqayıt şəhərində restoranda fəaliyyət göstərən və 2 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olan şəxs dövriyyəsi artdığı üçün yaxın aylarda 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi rejiminə keçməyi planlaşdırır. 2026-cı ilin yanvar ayında vergi orqanından daxil olan məlumat xarakterli bildirişdə 2026-cı ildən ƏDV qeydiyyatı üçün məbləğ limitində nağdsız qaydada formalaşan dövriyyəyə 0,5 əmsal tətbiq olunduğu qeyd edilmişdir. Restoranın ardıcıl 12 ay ərzində ümumi dövriyyəsi 190.000 manat təşkil edir, bu məbləğin isə 150.000 manatı POS-terminal vasitəsilə həyata keçirilib. Şəxs nə vaxtadək 2 faiz sadələşdirilmiş vergi rejimi tətbiq edə bilər?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə əlavə edilmiş 218.1-1-ci maddəsinə əsasən, bu Məcəllənin 218.1.1-ci və 218.1.2-ci maddələrinə uyğun olaraq, vergi tutulan əməliyyatların həcmi müəyyən edilərkən vergi ödəyicisinin pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsi 0,5 əmsal tətbiq edilməklə nəzərə alınır.

Eyni zamanda, Azərbaycan Respublikasının 9 dekabr 2025-ci il tarixli 297-VIIQD nömrəli Qanununun keçid müddəalarının 18.1-ci maddəsinə əsasən Vergi Məcəlləsinin 155.1-1-ci və 218.1-1-ci maddələrinin müddəaları 2026-cı il yanvarın 1-dən sonra həyata keçirilən vergi tutulan əməliyyatlara münasibətdə tətbiq olunur.
Buna əsasən, Vergi Məcəlləsinin 218.1-1-ci maddəsinə uyğun olaraq vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyicisinin dövriyyə həddi müəyyən edilərkən yalnız 2026-cı il yanvarın 1-dən sonra həyata keçirilən vergi tutulan əməliyyatları üzrə POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəyə 0,5 əmsal tətbiq edilməklə hesablanır. 2026-cı ilin yanvarın 1-dək formalaşan dövriyyəsi POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşsa da, ƏDV-nin qeydiyyatı məqsədləri üçün tam şəkildə vergi tutulan əməliyyatlarına aid edilir.
Vergi Məcəlləsinin qeyd olunan müddəalarına uyğun olaraq, müəyyən edilmiş vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olduqda, ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyicisi 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etmək üçün dövriyyə həddinin keçdiyi aydan sonrakı ayın 1-dən etibarən 10 gün ərzində bu barədə vergi orqanına yazılı formada ərizə təqdim etməlidir.

*Əsas: Vergi Məcəlləsinin 155.1-ci və 218.1-1-ci maddələri, Azərbaycan Respublikasının 9 dekabr 2025-ci il tarixli 297-VIIQD nömrəli Qanunu.*

?

**9. 2026-cı ilin yanvar ayında vergi uçotuna alınan fərdi sahibkar Yasamal rayonunda məişət mallarının pərakəndə satışı ilə məşğul olur və 2026-cı ilin may ayınadək POS-terminal vasitəsilə nağdsız qaydada aparılan əməliyyatları 250.000 manat, nağd qaydada aparılan əməliyyatları isə 70.000 manat məbləğində olmuşdur. 2026-cı ildən ƏDV qeydiyyatına alınmaq üçün dövriyyə həddinin 400.000 manata qaldırılması barədə xəbər saytlarında məqalə dərc olunub. Dəyişikliyə görə mühasibi olduğum fərdi sahibkar ƏDV qeydiyyatına alınmalıdırmı?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə əlavə edilmiş 155.1-1-ci maddəsinə əsasən, bu Məcəllənin 155.1-ci maddəsinə uyğun olaraq, vergi tutulan əməliyyatların həcmi müəyyən edilərkən vergi ödəyicisinin pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsi 0,5 əmsal tətbiq edilməklə nəzərə alınır.

Vergi Məcəlləsinin 155.1-ci maddəsinə əsasən sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən bu Məcəllənin 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (bu Məcəllənin 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) bu Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Buna əsasən, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın ardıcıl 12 aylıq dövrün istənilən aylarında ümumi dövriyyəsi 320.000 manat olsa da, ƏDV məqsədləri üçün POS-terminal vasitəsilə nağdsız qaydada aparılan əməliyyatlar nəticəsində he-

sablanan dövriyyəsi 125.000 manat (250.000 × 0,5) və ƏDV qeydiyyatının məqsədləri üçün nəticədə ümumi dövriyyəsi 195.000 manat (125.000+70.000) məbləğində olduğundan, həmin fərdi sahibkarın ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaranmır.

*Əsas: Vergi Məcəlləsinin 155.1-ci və 155.1-1-ci maddələri.*

?

**10. Azərbaycan vətəndaşı olan və Azərbaycanda daimi yaşayan investor süni intellekt sahəsində fəaliyyət göstərən xarici şirkətin səhmlərinə sahibdir. Şirkətin 2026-cı ilin I yarımilliyi üzrə fəaliyyət yekunlarına əsasən formalaşmış bölüşdürülməmiş mənfəətinin 2026-cı ilin iyul ayında səhmdarlar arasında bölüşdürülməsi barədə qərar qəbul edilmişdir və bu qərara əsasən rezident investora 4.000 ABŞ dolları (6.800 manat ekvivalentində) məbləğində dividend ödənilir. Bu dividend gəliri üzrə həmin investor Azərbaycanda necə vergiyə cəlb olunmalıdır?**

Bildiririk ki, Vergi Məcəlləsinin 101.2-ci maddəsinin 2026-ci il yanvarın 1-dək olan redaksiyasına əsasən, qeyri-rezident şirkətdən əldə edilən dividend gəlirləri 14 faiz dərəcə ilə vergiyə cəlb olunurdu.

2026-cı il yanvarın 1-dən Vergi Məcəlləsinin 101.2-ci maddəsində edilmiş dəyişikliyə əsasən, fiziki şəxslərin qeyri-rezident şirkətdən əldə edilən dividend gəlirləri üzrə vergi dərəcəsi 14 faizdən 5 faizə endirilmişdir.

Buna əsasən qeyri-rezident şirkətdən dividend gəliri əldə edən rezident fiziki şəxs vergi orqanlarında uçota alınmaqla VÖEN əldə etməli və əldə edilən gəlirdən Vergi Məcəlləsinin 101.2-ci maddəsinə uyğun olaraq 5 faiz dərəcə ilə gəlir vergisi hesablayaraq növbəti ilin (sorğuda göstərilən halda 2027-ci ilin) mart ayının 31-dən gec olmayaraq “Gəlir vergisinin bəyannaməsi”ni

vergi orqanına təqdim etməklə dövlət büdcəsinə ödəməlidir.

*Əsas: Vergi Məcəlləsinin 101.2-ci və 149.2-ci maddələri.*

**11. Spirtli içki istehsalı ilə məşğul olan müəssisə "Duty-Free" mağazasına spirtli içkiləri təqdim etdikdə ƏDV və aksiz hesablanırdı. Ancaq "Duty-Free" mağazasından bildirildi ki, 2026-cı ilin yanvarın 1-dən sonra artıq bu mallara vergilər 0 faiz dərəcə ilə tətbiq olunmalıdır. Belə hal qanunvericilikdə mövcuddurmu?**

Bildiririk ki, 2026-cı il yanvarın 1-dək vergi ödəyicisi tərəfindən rüsumsuz ticarət mağazasına təqdim olunan mallara görə ümumi qaydada ƏDV və aksiz vergisi hesablanıb dövlət büdcəsinə ödənilirdi.

2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinin 165.1.3-cü maddəsinə edilmiş dəyişikliyə əsasən, Azərbaycan Respublikasının ərazisində istehsal edilən və rüsumsuz ticarət mağazalarında satılması ilə bağlı xüsusi nişanı olan aksizli malların rüsumsuz ticarət mağazalarına təqdim edilməsi ƏDV-yə 0 dərəcə ilə cəlb olunur.

Eyni zamanda, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinin 187-ci maddəsinə edilmiş dəyişikliyə əsasən rüsumsuz ticarət mağazalarında satılması ilə bağlı xüsusi nişanı olan aksizli malların rüsumsuz ticarət mağazalarına təqdim edilməsi sıfır dərəcəsi ilə aksizə cəlb olunur.

Qeyd olunanlara əsasən, 2026-cı ilin yanvarın 1-dən etibarən Azərbaycan Respublikasının ərazisində istehsal edilən və rüsumsuz ticarət mağazalarında satılması ilə bağlı xüsusi nişanı olan aksizli malların, o cümlədən spirtli içkilərin rüsumsuz ticarət mağazalarına təqdim edilməsi sıfır (0) dərəcəsi ilə ƏDV-yə və aksiz vergisinə cəlb olunur.

*Əsas: Vergi Məcəlləsinin 165.1.3-cü və 187-ci maddələri.*

# 2

# Vergi daxilolmalarının və büdcə gəlirlərinin tənzimlənməsi

?

**1. Fiziki şəxs özəl bir şirkətdə dizayner kimi əmək müqaviləsi ilə işləyir və aylıq 1500 manat əməkhaqqı alır. O, 2026-cı ilin yanvar ayı üzrə maaşını aldıqda hesabına əvvəlkindən daha az məbləğ köçürüldüyünü müəyyən etdi. Mühasibatlıq şöbəsindən bildirildi ki, bu ildən etibarən işçilərin gəlirlərindən vergi tutulmağa başlanılıb. Bu doğrudurmu?**

Məlum olduğu kimi, Vergi Məcəlləsinin 101.1-1-ci maddəsinə əsasən, 2019-cu il yanvarın 1-dən 7 il müddətində neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən 8000 manatadək olan aylıq gəlirlərindən vergi tutulmurdu.
2026-cı il yanvarın 1-dən həmin maddəyə edilmiş dəyişikliyə əsasən, fiziki şəxslərin muzdlu işdən 2500 manatadək olan aylıq gəlirlərindən 2027-ci il yanvarın 1-dək 3 faiz, 2027-ci il yanvarın 1-dən 2028-ci il yanvarın 1-dək 5 faiz, 2028-ci il yanvarın 1-dən isə 7 faiz həcmində vergi tutulur.
Buna əsasən, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicisində işləyən fiziki şəxsin 2026-cı ilin yanvar ayı üzrə 2500 manatadək olan muzdlu işlə əlaqədar aylıq gəlirlərindən Vergi Məcəlləsinin 102-ci maddəsində müəyyən olunmuş azadolmalar nəzərə alınmaqla 3 faiz dərəcə ilə vergi tutulur, əmək haqqından tutulan sığorta haqlarında isə dəyişiklik olmamışdır.

*Əsas: Vergi Məcəlləsinin 101.1-1-ci maddəsi.*

?

**2. 2026-cı ilin mart ayında Çindən qayıdarkən ölkəyə gətirdiyim dəyəri 500 ABŞ dolları olan 2 ədəd telefon üçün gömrük orqanında aksiz vergisi tələb edildi və bildirildi ki, bu ildən etibarən xaricdən mobil cihazları ölkə ərazisinə gətirərəkən vergi ödənilməlidir. Bu məlumat doğrudurmu?**

2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, mobil cihazlar aksizli malların siyahısına əlavə olunmuş və Azərbaycan Respublikasına idxal olunan mobil cihazın hər bir ədədinə görə 20 manat məbləğində aksiz vergisi müəyyən edilmişdir.

Bununla belə, Vergi Məcəlləsinin müddəalarına əsasən fiziki şəxslər tərəfindən şəxsi istifadəsi üçün təqvim ili ərzində idxal olunan 1 ədəd mobil cihaz aksiz vergisindən azaddır.

Qeyd olunanlara əsasən, fiziki şəxs tərəfindən şəxsi istifadəsi üçün təqvim ili ərzində idxal olunan yalnız 1 ədəd mobil cihaz aksiz vergisindən azaddır və birdən artıq idxal olunan mobil cihazların hər bir ədədinə görə 20 manat məbləğində aksiz vergisi ödənilir.

*Əsas: Vergi Məcəlləsinin 188.1.1.11-ci, 190.1.13-cü və 190.4.6-cı maddələri.*

**3. Mən mühasib kimi ekspedisiya fəaliyyəti göstərən şirkətdə işə başlamışam. Əvvəlki dövrlərin maliyyə hesabatları ilə tanış olarkən müəyyən uyğunsuzluqlar aşkar etdim. Şirkətimizdə səyyar vergi yoxlaması keçirilməyib. Həm də 2021-ci ilin mənfəət vergisinin hesabatı üzrə 3 il keçdiyi üçün dəqiqləşdirilmiş hesabat təqdim etmək olmur. Könüllü açıqlamadan istifadə edərək 2021-ci il üzrə həmin dövr üzrə mənfəət vergisinin hesabatını təqdim etməklə hesablamalar aparıla bilərmi?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən könüllü açıqlama mexanizminin əhatəsi genişləndirilmiş və səyyar vergi yoxlamasının keçirilməsindən asılı olmayaraq, vergi və sığorta öhdəliklərini yaradan halların vergi ödəyiciləri tərəfindən 3 illik müddətdən əvvəlki dövrlər üzrə də könüllü şəkildə bəyan edilməsi könüllü açıqlama anlayışı ilə əhatə olunmuşdur.
Buna əsasən, şirkət tərəfindən səyyar vergi yoxlamasının keçirilməməsinə və hesabat dövründən 3 il ötməsinə baxmayaraq, 2021-ci il üzrə mənfəət vergisi hesabatına könüllü açıqlama etməklə müvafiq hesablamalar aparıla bilər.

*Əsas: Vergi Məcəlləsinin 13.2.49-2-ci maddəsi.*

?

**4. Özəl tibb müəssisəsi 2026-cı il üzrə əmlak vergisinin düzgün hesablanmaması ilə bağlı vergi orqanından bildiriş almışdır. Məlumdur ki, tibb təyinatı üzrə istifadə edilən əsas vəsaitlər əmlak vergisindən azad edildiyinə görə müəssisə uzun müddətdir bu vergini ödəməmişdir. Bu halda, vergi orqanı tərəfindən özəl tibb müəssisəsinə əmlak vergisi ilə bağlı bildiriş göndərilməsinin səbəbi nə ola bilər?**

Bildiririk ki, 2026-cı il yanvarın 1-dən Vergi Məcəlləsinin 199.4-cü maddəsində edilmiş dəyişikliyə əsasən, bu Məcəllənin 199.4.4-cü maddəsində nəzərdə tutulmuş əsas vəsaitlərə (təhsil, tibb, mədəniyyət və idman sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinin və fərdi sahibkarın yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi əsas vəsaitlərə) münasibətdə onların dəyərinin 75 faizi həddində əmlak vergisindən azadolma tətbiq olunur.
Buna əsasən, tibb sahəsində fəaliyyət göstərən özəl tibb müəssisəsinin bu sahənin təyinatı üzrə istifadə etdiyi əsas vəsaitlərinin dəyərinin 75 faiz həddinə 2026-ci il üzrə əmlak vergisindən güzəşt tətbiq edilir. Əsas vəsaitlərinin dəyərinin qalan 25 faiz hissəsi ümumi qaydada əmlak vergisinə cəlb olunur.

*Əsas: Vergi Məcəlləsinin 199.4.4-cü maddəsi.*

# 3

# Vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi, «kölgə iqtisadiyyatı»na qarşı mübarizə

?

**1. 2026-cı ildən vergi qanunvericiliyinə "üfüqi monitorinq" adlı yoxlama üsulu gətirilmişdir. 2025-ci ildə daxili dizayn xidmətləri fəaliyyəti üzrə yaradılmış şirkət illik dövriyyəsi 180.000 manat, işçi sayı isə 8 nəfər olan mikro sahibkarlıq subyektidir. Bu halda həmin şirkət üfüqi monitorinqə qoşula bilərmi?**

2026-cı yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə üfüqi monitorinq adlı vergi nəzarət mexanizmindən tətbiqi ilə bağlı müddəalar əlavə edilmişdir.
Eyni zamanda, Vergi Məcəlləsinin 38-1.3-cü maddəsində üfüqi monitorinqə qəbul edilmək üçün şərtlər müəyyən edilmiş və həmin şərtlərdən biri də üfüqi monitorinqə qəbul edilməsi üçün müraciət edən vergi ödəyicisinin orta və iri sahibkarlıq subyekti olmasıdır.
Buna əsasən mikro sahibkarlıq subyekti olan vergi ödəyicisi üfüqi monitorinqə qəbul edilməsi üçün müəyyənləşdirilmiş sahibkarlıq subyektinə dair şərtlərə cavab vermədiyindən üfüqi monitorinqə qəbul edilmir.

*Əsas: Vergi Məcəlləsinin 38-1.3-cü maddəsi.*

?

**2. Fiziki şəxs mənzilini 2 il müddətinə vergi ödəyicisi olmayan şəxsə 500 manata kirayəyə, obyektini isə fərdi sahibkara 1000 manata icarəyə vermişdir. Hər il kirayə gəlirlərindən 14 faiz dərəcə ilə vergini özü ödəyir. İcarə haqqından isə fərdi sahibkar 14 faiz dərəcə ilə vergini tutub qalan məbləği fiziki şəxsə ödəyir. Mətbuatda bildirildi ki, kirayə haqqından verginin dərəcəsi 10 faizə endirilmişdir. Adıçəkilən şəxsin gəlirləri vergiyə hansı dərəcə ilə cəlb olunmalıdır?**

Vergi Məcəlləsinin 124.1-ci maddəsinə 2026-cı ilin yanvarın 1-dən edilmiş dəyişikliklərə əsasən, fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. İcarə (kirayə) haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə icarəyə (kirayəyə) verən özü və ya onun təyin etdiyi vergi agenti bu maddəyə uyğun olaraq 14 faiz (icarəyə münasibətdə) və ya 10 faiz (kirayəyə münasibətdə) dərəcə ilə vergini ödəyir və bu Məcəllənin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verir.
Belə ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan fiziki şəxslərə məxsus olan yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) kirayə haqları üzrə vergi dərəcəsi optimallaşdırılaraq 14 faizdən 10 faizə endirilmişdir.
Qeyd olunanlara əsasən, vergi ödəyicisi olmayan şəxsə kirayəyə verilmiş mənzilə görə əldə olunan illik kirayə haqqı gəlirləri kirayəyə verən fiziki şəxs tərəfindən 10 faiz dərəcə ilə vergiyə (500x12x10%=600) cəlb olunmaqla özü tərəfindən vergi orqanına bəyan edilərək dövlət büdcəsinə ödənilməlidir. Fiziki şəxsin

obyektinin icarəyə verilməsindən əldə olunan gəlirləri isə icarəyə götürən fərdi sahibkar tərəfindən ödəmə mənbəyində tutulmaqla 14 faiz dərəcə ilə vergiyə cəlb olunur.

*Əsas: Vergi Məcəlləsinin 124.1-ci maddəsi.*

**3. Fiziki şəxs saçını kəsdirmək üçün bərbərxanaya gəlir və saç kəsimi üçün kartla 20 manat ödədikdən sonra bərbər ona NKA çeki təqdim edir. Bərbər ƏDV qeydiyyatında olmadığı üçün göstərdiyi xidmətlərə görə ƏDV hesablamır. Lakin Rauf çekdə ƏDV məbləği qeyd edilmədiyini irad tutur və 2026-cı ildən ƏDV-nin bir hissəsini geri almaq hüququnun olduğunu bildirir. Vətəndaşın iradı qanuna uyğundurmu?**

Vergi Məcəlləsinin 165.5-ci maddəsinə 2026-cı ilin yanvarın 1-dən edilmiş dəyişikliyə əsasən, ƏDV-nin müəyyən hissəsinin geri qaytarılması mexanizminin tətbiq edildiyi ödənişlərə bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə görə edilən ödənişlər əlavə edilmişdir.
Belə ki, 2026-cı ilin yanvarın 1-dən ƏDV qeydiyyatında olan bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 17,5 faizi, nağd qaydada ödənilmiş ƏDV-nin 5 faizi fiziki şəxs olan istehlakçılara geri qaytarılır.
Sualda göstərilən halda, bərbər xidmətini göstərən fərdi sahibkar ƏDV qeydiyyatında olmadığı üçün apardığı əməliyyatlar ƏDV-yə cəlb olunmur və bu zaman ƏDV-nin geri qaytarılması mexanizmi tətbiq olunmur.

*Əsas: Vergi Məcəlləsinin 165.5-ci maddəsi.*

?

**4. Təhlükəsizlik sahəsində fəaliyyət göstərən MMC televiziya kanalı ilə 2 illik müqavilə bağlayaraq bu müddət ərzində kanalın təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlərin göstərilməsini həyata keçirir. Televiziya kanalından bildirildi ki, vergi əməkdaşlarının televiziyada çıxışı zamanı müntəzəm və daimi əsaslarda göstərilən xidmətlər üzrə elektron qaimə-faktura ilə bağlı 2026-cı ildən Vergi Məcəlləsinə dəyişikliklər edildiyi barədə məlumat verildi. Müəssisə göstərdiyi təhlükəsizlik xidmətlərinə görə elektron qaimə-fakturanı nə zaman təqdim etməlidir?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinə əlavə edilmiş 71-1.1.3-2-ci maddəsinə əsasən, müntəzəm və daimi əsaslarda göstərilən xidmətlər üzrə hər təqvim ayı üçün xidmətlərin göstərilməsinə başlanıldığı vaxt xidmətləri göstərən vergi ödəyicisi tərəfindən elektron qaimə-faktura təqdim edilməlidir.
Bu baxımdan, təhlükəsizlik xidməti göstərən müəssisə tərəfindən müntəzəm olaraq göstərilən xidmətlərə görə alıcıya hər təqvim ayı üzrə həmin xidmətlərin göstərilməsinə başlanıldığı vaxt elektron qaimə-faktura verilməlidir.

*Əsas: Vergi Məcəlləsinin 71-1.1.3-2-ci maddəsi.*

**5. Dəniz qırağında vergi uçotuna alınmadan kafe işlədən şəxsə 2026-ci ilin iyun ayında vergi əməkdaşlarının keçirdiyi operativ vergi nəzarəti tədbiri zamanı vergi uçotu olmadan sahibkarlıq fəaliyyəti göstərdiyinə görə 200 manat maliyyə sanksiyası hesablanmışdır. Şəxs bu pozuntu üçün maliyyə sanksiyasının məbləğinin 40 manat olduğunu və əsassız olaraq artıq məbləğdə cərimə edildiyini iddia etməklə vergi orqanına şikayət etmişdir. Qanunda bu pozuntu halına görə hansı məsuliyyət nəzərdə tutulub?**

Bildiririk ki, Vergi Məcəlləsinin 33.4-cü maddəsinin müddəalarına əsasən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs ərizəni, sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanına verməlidir.
Vergi Məcəlləsinin 58.2-ci maddəsinin 2026-cı il yanvarın 1-dək olan redaksiyasına əsasən, bu Məcəllənin 33.4-cü maddəsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün ərizənin verilməməsinə görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilirdi.
2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinin 58.2-ci maddəsində edilmiş dəyişikliyə əsasən, bu Məcəllənin 33.4-cü maddəsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün ərizənin verilməməsinə görə 200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.
Bu baxımdan, fərdi sahibkar vergi uçotuna alınmaq üçün ərizəni sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanına təqdim etmədiyinə görə vergi orqanı tərəfindən 2026-ci ilin iyun ayında həyata keçirilən operativ vergi nəzarəti tədbiri zamanı həmin vergi ödəyicisinə Vergi Məcəlləsinin 58.2-ci maddəsinə əsasən, 200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

*Əsas: Vergi Məcəlləsinin 33.4-cü və 58.2-ci maddələri.*

?

**6. Mən fiziki şəxs qismində 2026-cı ilin may ayında vergi uçotu üçün ərizəmi poçtla göndərmişəm. Mənə vergi orqanı tərəfindən bildirdilər ki, ərizəmi düzgün təqdim etməmişəm. Ərizəmi necə verməli idim?**

Bildiririk ki, 2026-cı ilin yanvarın 1-dən Vergi Məcəlləsinin 34.1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, vergi orqanları tərəfindən fiziki şəxslərin vergi uçotuna alınması kağız formada aparılarkən uçota alınmaq üçün ərizənin poçt rabitəsi vasitəsilə göndərilməsi istisna edilmişdir.
Bu baxımdan, vergi uçotuna alınmaq üçün poçt rabitəsi vasitəsilə göndərilmiş ərizənin vergi orqanı tərəfindən icrasından imtina edilmişdir. Odur ki, vergi uçotuna alınmaq üçün ərizə vergi orqanına elektron və ya şəxsən kağız formatda təqdim edilməlidir.

*Əsas: Vergi Məcəlləsinin 34.1-ci maddəsi.*

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**